# Qaradağda şəhid Musayev Elşənin xatirəsi anılıb






**2023-cü il oktyabrın 30-da Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Elşən Hüseyn oğlu Musayevin xatirəsi Bakının Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində anılmışdır.**

Bu münasibətlə təşkil edilmiş anım mərasimində YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev, Qaradağ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Emil Abbasov, Milli Məclisin deputatı Aydın Hüseynov, şəhidin ailə üzvləri, qazilər və ictimaiyyətin nümayəndələri iştirak etdilər. Tədbirdə şəhidin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sonra isə məzarı üzərinə gül dəstələri qoyulub.

Anım mərasimində rayonun rəhbərliyi şəhid ailəsinin üzvləri ilə söhbət emiş, şəhidlərimizin əbədi ehtirama layiq olduğunu, onların ailələrinə bundan sonra da dövlət tərəfindən hər cür dəstək göstəriləcəyi bildirilmişdir. Şəhidin ailə üzvləri Vətən müharibəsi iştirakçıları ilə bağlı dövlətimizin gördüyü mühüm tədbirləri razılıqla qarşılamış, bu diqqət və qayğıya görə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci Vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıq ifadə etmişlər.

Qeyd edək ki, Azərbaycan Ordusunun kiçik çavuşu olan Elşən Musayev 1988-ci ilin iyunun 28-də Ağsu rayonunda anadan olmuşdur. Ağsuda 3 №-li orta məktəbi bitirdikdən sonra Murovdağda hərbi xidmət edib.Ordudan qayıtdıqdan sonra Müşviqabad qəsəbəsində yaşayıb və Prişkuldakı hərbi hissədə kiçik çavuş rütbəsində xidmət edib.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan ordusunun işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Cəbrayılın, Xocavəndin, Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Elşən Musayev oktyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olmuşdur. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyiə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Elşən Musayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə","Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Ailəli idi, Ayşən və Dəryanur adında qızları, Hüseyn adında isə oğlu yadigar qalmışdır.**

**Allah rəhmət eləsin!**

**Bilman İSAQ**